**Təsnifat sistemi – Tokio-2020 XXXII Yay Olimpiya Oyunları**

**BEYNƏLXALQ AĞIR ATLETİKA FEDERASİYASI (IWF)**

**AĞIR ATLETİKA**

## A. OLİMPİYA ÇƏKİ DƏRƏCƏLƏRİ

| Kişilər üçün çəki dərəcələri (7) | Qadınlar üçün çəki dərəcələri (7) |
|---|---|
| 61kq | 49kq |
| 67kq | 55kq |
| 73kq | 59kq |
| 81kq | 64kq |
| 96kq | 76kq |
| 109 kq | 87kq |
| +109 kq | +87 kq |

## B. İDMANÇILARIN LİSENZİYALARI

### 1. Ağır atletika üçün lisenziyaların ümumi sayı

| Kişilər | Qadınlar |
|---|---|
| 98 | 98 |

### 2. Çəki dərəcələri üzrə idmançıların maksimal sayı

Hər bir çəki dərəcəsində idmançıların maksimum sayı: 14 idmançı

### 3. Milli Olimpiya Komitəsi (MOK) tərəfindən idmançıların maksimal sayı

- Beynəlxalq Ağır Atletika Federasiyasının (IWF) mütləq reytinqi; dünya xalları (https://www.iwf.net/qualif/menu/)

| Cins | MOK üçün maksimum | Çəki dərəcəsinin xüsusiyyəti |
|---|---|---|
| Kişilər | 4* | Hər çəki dərəcəsində 1 (bir) idmançı |
| Qadınlar | 4* | Hər çəki dərəcəsində 1 (bir) idmançı |

- Beynəlxalq Ağır Atletika Federasiyasının (IWF) mütləq reytinqi; **qitə xalları** (https://www.iwf.net/qualif/menu/)

| Cins | MOK üçün maksimum | Çəki dərəcəsinin xüsusiyyəti |
|---|---|---|
| Kişilər | 3* | Hər çəki dərəcəsində 1 (bir) idmançı |
| Qadınlar | 3* | Hər çəki dərəcəsində 1 (bir) idmançı |

## 4. Təşkilatçı-dövlət üçün lisenziya

| Cins | MOK-dan maksimum | Çəki dərəcəsinin xüsusiyyəti |
|---|---|---|
| Kişilər | 3* | Hər çəki dərəcəsində 1 (bir) idmançı |
| Qadınlar | 3* | Hər çəki dərəcəsində 1 (bir) idmançı |

* Konkret antidopinq qayda və təlimatlarına müvafiq olaraq, C.3 bölməsində qeyd olunduğu kimi hər dövlətdən idmançıların sayı

## 5. Lisenziyaların paylanma növü:

- Mütləq reytinq yolu ilə qazanılmış lisenziya, (dünya və/və ya qitə xalları) idmançıya şəxsən adı ilə təqdim olunur (şəxsi təsnifat).
- Təşkilatçı-dövlətə verilmiş lisenziya, MOK tərəfindən uyğun idmançılara paylanılır**.**
- Üç tərəfli komissiya tərəfindən bölüşdürülmüş lisenziya (universallıq) MOK tərəfindən, idmançıya şəxsən adı ilə təqdim olunur (fərdi).

## C. İDMANÇININ İŞTİRAK HÜQUQU

Bütün idmançılar hal-hazırda qüvvədə olan Olimpiya Xartiyasının şərtlərinə uyğun olmalı, həmçinin 41-ci (iştirakçıların vətəndaşlığı) və 43-cü (Yarışlarda manipulyasiyanın qarşısının alınması ilə bağlı Ümumdünya Antidopinq və Olimpiya Hərəkatı kodeksləri) maddələrə müvafiq olmalıdırlar.
Olimpiya Xartiyasına riayət edən idmançılar Tokio-2020 Olimpiya Oyunlarında iştirak edə bilərlər.

### 1. Yaş tələbləri

2020 Olimpiya Oyunlarında iştirak edəcək idmançıların doğum ili maksimum 31 dekabr 2005-ci il tarixindən yuxarı olmamalıdır.

### 2. Beynəlxalq Ağır Atletika Federasiyasının (IWF) əlavə şərtlərinin məqbulluğu

Milli Olimpiya Komitəsindən hüquqların əldə olunması üçün idmançı borcludur:

a) Beynəlxalq Ağır Atletika Federasiyası və Milli antidopinq təşkilatı/milli federasiya tərəfindən tədbiq olunmuş cəza müddətində olmamalı (şərti kənarlaşdırma daxil olmaqla);
b) Olimpiya Oyunlarının əsas prinsiplərini təmin etmək məqsədilə Beynəlxalq Olimpiya Komitəsinin və Beynəlxalq Ağır Atletika Federasiyasının (IWF) tədbiq etdiyi qaydalara və təlimatlara riayət etməli;
c) Beynəlxalq Ağır Atletika Federasiyasının (IWF) mütləq reytinqi vasitəsilə lisenziyaların əldə olunması üçün təsnifat dövrü ərzində müvafiq yarışlarda aşağıdakı şərtləri yerinə yetirilməli:

   i. Təsnifat dövrü ərzində (3 dövr) məqbul olan minimum 6 (altı) lisenziya təsnifatlı yarışda iştirak etməli;

ii. Təsnifat dövrünün hər bir hissəsində (**dövr-1, dövr-2 və dövr-3.B**) minimum qəbul olunan 1(bir) lisenziya təsnifatlı yarışda iştirak etməli:

Dövr-1: 01 noyabr 2018 - 30 aprel 2019
Dövr-2: 01 may 2019 - 31 oktyabr 2019
Dövr-3 iki hissədən ibarətdir:
**3.A**: 01 noyabr 2019 - 30 aprel 2020
**3.B: 01 oktyabr 2020 - 30 aprel 2021**

iii. Təsnifat dövrü ərzində 1 (bir) qızıl səviyyəli və 1 (bir) qızıl ya da 1 (bir) gümüş səviyyəli yarışda idmançının iştirakı tələb olunur.

d) Təşkilatçı dövlətin idmançıları təsnifat dövrünün (3 dövr) hər bir hissəsində (**dövr-1, dövr-2 və dövr 3.B**) minimum qəbul olunan 1(bir) lisenziya təsnifatlı yarışda iştirak etməlidirlər; ən azı 1 (bir) gümüş səviyyəli yarış daxil olmaqla;
e) Üçtərəfli komissiya tərəfindən lisenziya dəvətinin alınması üçün idmançılar olimpiya təsnifatı dörvü ərzində müvafiq yarışlarda minimum 2 (iki) dəfə, o cümlədən ən azı bir (1) gümüş səviyyəli müvafiq yarışda iştirak etməlidirlər.
f) Lisenziyaların yenidən bölüşdürülməsi üçün, minimum iştirak tələbləri metoduna cavab verilməlidir.

**3. Hər ölkədən iştirakçıların sayı**

Xüsusi antidopinq qaydalarına müvafiq olaraq bütün Milli Olimpiya Komitələri/Milli Federasiyalar minimum 1 (bir) kişi və 1 (bir) qadın fərdi lisenziyası sifariş etmək hüququna malikdirlər.

a) 2008 Pekin Yay Olimpiya Oyunlarının başlanma tarixindən Tokio 2020 Yay Olimpiya Oyunlarının təsnifat dövrünün bitməsi tarixinə qədər əgər milli federasiya tərəfindən 10 (on) və **daha artıq, lakin** 20 pozuntudan az antidopinq qaydalarının pozuntusu olubsa, (Milli federasiyanın, Milli Olimpiya Komitəsinin və Milli Antidopinq təşkilatının sanksiyaları istisna olmaqla), bu halda milli federasiya əlavə 1 (bir) kişi və 1 (bir) qadın – ümumi hesabda 2 (iki) kişi və 2 (iki) qadın fərdi lisenziyası qazanmaq hüququna malikdir;

b) 2008 Pekin Yay Olimpiya Oyunlarının başlanma tarixindən Tokio 2020 Yay Olimpiya Oyunlarının təsnifat dövrünün bitməsi tarixinə qədər əgər Milli federasiya tərəfindən 10 (on) hadisədən az antidopinq qaydalarının pozuntusu olubsa, (Milli federasiyanın, Milli Olimpiya Komitəsinin və Milli Antidopinq təşkilatının sanksiyaları istisna olmaqla), bu halda Milli federasiya əlavə 3 (üç) kişi və 3 (üç) qadın – ümumi hesabda 4 (dörd) kişi və 4 (dörd) qadın fərdi lisenziyası qazanmaq hüququna malikdir;

c) 2008 Pekin Yay Olimpiya Oyunlarının başlanma tarixindən Tokio 2020 Yay Olimpiya Oyunlarının təsnifat dövrünün bitməsi tarixinə qədər Azərbaycan Ağır

Atletika Federasiyasının idmançıları tərəfindən 20-dən artıq antidopinq qayda pozuntusu olduğuna görə Tokio 2020 Yay Olimpiya Oyunlarına fərdi surətdə 1 (bir) kişi və 1 (bir) qadın lisenziyası qazanmaq hüququna malikdir.

**4. Antidopinq qaydaları**

a) Tokio 2020 Yay Olimpiya Oyunlarının təsnifat dövrü ərzində idmançılar və ya milli federasiyaya/MOK daxil olan digər şəxslər tərəfindən törədilən 3 (üç) və daha artıq antidopinq pozuntusuna IWF və ya WADA tərəfindən sanksiya verilibsə (Milli federasiya və Milli Antidopinq təşkilatlarının sanksiyaları istisna olmaqla), o halda IWF tərəfindən təyin olunan Müstəqil Qrup IWF-nin antidopinq qaydalarına əsasən, aşağıdakı hüquqlara malikdir**.**

i. Milli Federasiyanı/MOK Tokio 2020 Yay Olimpiya Oyunları ilə bağlı lisenziyadan məhrum edə bilər, və/və ya

ii. Milli Federasiyanı/MOK növbəti Olimpiya Oyunlarından diskvalifikasiya edə bilər. Əgər belə bir milli federasiyaya öz idmançıları ilə təsnifat dövrü ərzində müvafiq yarışlarda iştirak etməyə icazə verilərsə, o halda onun idmançılarına Tokio 2020 Yay Olimpiya Oyunlarına IWF-nin mütləq reytinq xallarının (dünya və qitə) qazanılmasına icazə verilməyəcəkdir.

b) maddəsinə müvafiq olaraq geri alınmış istənilən lisenziya aşağıda qeyd olunduğu qaydada yenidən bölüşdürülməlidir. **I.İstifadə olunmamış lisenziyaların yenidən bölüşdürülməsi bölməsinə əsasən**

c) IWF Antidopinq qaydalarının 12.5.2. maddəsinə əsasən,əgər IWF Antidopinq qaydalarının 12.5. maddəsi və ya Tokio 2020 Yay Olimpiya Oyunları ilə bağlı müvafiq əsas antidopinq qaydaları pozulubsa (hətta pozuntu ilə əlaqədar iş gedirsə), o halda IWF tərəfindən yaradılmış Müstəqil Qrup vacib sayarsa, öz mülahizəsinə əsasən əlavə tədbirlər görə bilər.

d) IWF Antidopinq qaydalarının 12.6. maddəsinə əsasən, əgər 2 (iki) və daha artıq idmançı və milli federasiya/MOK ilə bağlı şəxslər Tokio 2020 Yay Olimpiya Oyunlarının keçirilməsi ərəfəsində IWF-nin Antidopinq Qaydalarını pozarsa,o halda onlar 4 (dörd) il müddətinə diskvalifikasiya olunacaqlar (sonrakı nümunə analizləri daxil olmaqla). Yekun qərardan sonra müvafiq milli federasiyanın/MOK növbəti Olimpiya Oyunlarına əlaqəli idmançıların və milli federasiya ilə bağlı şəxslərin sifarişlərinin və təqdimatlarının verilməsi avtomatik olaraq qadağan olunacaqdır. Milli federasiya/MOK ,tədbiq olunmuş (birinci iki) müvafiq sanksiyaları ciddiyə alaraq, əlaqəli idmançıların və milli federasiya ilə bağlı şəxslərin yarışlarda iştirak etməməsinə konkret tədbirlər görməlidir, əks halda IWF Antidopinq Qaydalarına müvafiq olaraq növbəti sanksiyalar tətbiq olunacaqdır.

e) IWF Antidopinq Qaydalarının 12-ci maddəsinə müvafiq olaraq Müstəqil Qrup vacib sayarsa, mülahizəsinə əsasən əlavə tədbirləri gördükdə hazırkı Olimpiya təsnifat sistemi onun səlahiyyətlərini məhdudlaşdırmamalıdır.

**5. Qəbul olunan yarışlar**

**Dövr-1, dövr-2, dövr-3.A: 01 noyabr 2018 - 30 aprel 2020**

a) Qızıl səviyyəli: dünya çempionatları və birincilikləri (gənclər), qitə çempionatları və birincilikləri (gənclər);
b) Gümüş səviyyəli: hazırkı[1] IWF yarışları: multi-idman oyunları, çempionatlar;
c) Bürünc səviyyəli: beynəlxalq, regional yarışlar, çempionatlar, kuboklar və s.

**Dövr 3.B: 01 oktyabr 2020 - 30 aprel 2021**

a) 3.A-dövrünə aid olan təxirə salınmış və başqa tarixə keçirilmiş lisenziya xarakterli bütün yarışlar
b) Bölmə 5-də qeyd olunan,keçirilməyən bütün analoji yarışlar – Dövr-3.B, a)

Yalnız böyüklər və və/ya gənclərin yaş qrupları[2] üçün IWF tərəfindən təşkil edilmiş, tanınan və / və ya irəli sürülən yarışlar uyğun yarışlar hesab olunur.

[1] IWF yarışları, IWF-nin təqvim planına uyğun olaraq razılaşdırılmış IWF yarışları
[2] IWF yarışlarının texniki qayda və təlimatlarında müəyyən olunduğu qaydada (http://www.iwf.net/downloads/?category=23)

## D. TƏSNİFAT YOLU

1. **Kişilər / Qadınlar**

| **Lisenziyaların ümumi sayı** | **Təsnifat metodu** | | **Lisenziyaların paylanması** |
|---|---|---|---|
| 56 + 56 = 112 | IWF mütləq reytinq (dünya xalları) | IWF-nin mütləq reytinqindən qazanılan dünya xalları fərdi təsnifat üçün idmançıların müəyyən olunmasında istifadə olunacaqdır | İdmançı |
| 35 + 35 = 70 | IWF mütləq reytinq (qitə xalları) | IWF mütləq reytinqində ən yüksək reytinqli idmançı (hər qitəyə 1 lisenziya), başqa şəkildə təmsil olunmursa o halda fərdi lisenziya qazanmalıdır | İdmançı |
| 3 + 3 = 6 | Təşkilatçı –dövlət | Təşkilatçı-dövlətə hər cins üçün 3 (üç) lisenziyanın verilməsinə zamanət verilir | MOK |
| 4 + 4 = 8 | Üç tərəfli dəvət | Universallıq prinsipi əsasında maksimum 1 (bir) lisenziya verilə bilər | İdmançı |

2. **Medalların oynanılmasına əsasən (Medal Event)**

| Medalların oynanılmasına əsasən lisenziyaların sayı | Təsnifatın metodu | | Lisenziyaların bölunməsi |
|---|---|---|---|
| 8 | IWF mütləq reytinq (dünya xalları) | 8 (səkkiz) idmançının ən yüksək nəticələri IWF-nin mütləq reytinqində təsnifatlandırılır (dünya xalları) | İdmançı |
| 5 | IWF mütləq reytinq (qitə xalları) | IWF mütləq reytinqinə əsasən MOK-un yüksək reytinqli idmançısı (müəyyən səbəblərdən çıxış etməyibsə fərdi lisenziyanı qazanmalıdır). Hər qitəyə 1(bir) lisenziya | İdmançı |
| 1 | Təşkilatçı-dövlət | Yarışa maksimum 1(bir) idmançının sifarişi | MOK |
| | Üç tərəfli dəvət | Yarışa maksimum 1(bir) idmançının sifarişi | İdmançı |

## E. TƏSNİFATIN QAYDALARI

1. 10 (on) çəki dərəcəsindən (kişilər və qadınlar-10+10) götürülən idmançıların nəticələri IWF-nin mütləq reytinqinə daxil edəcəkdir. (ROBİ xallarına əsasən təmsil olunan);

2. Qızıl, Gümüş və Bürünc səviyyəli yarışlarda əldə olunmuş nəticələr (ROBİ xallarına əsasən təmsil olunan),idmançılara imkan verəcək ki, qazandıqları xalları əmsala müvafiq mütləq reytinqə yazdırsınlar (Qızıl: x 1.10, Gümüş: x 1.05, Bürünc: x 1.00)

3. Təsnifat dövrünün sonunda, idmancının 2 (iki) yarışda eyni Olimpiya çəki dərəcəsində iştirak etməsi şərti ilə mütləq reytinq üzrə idmançının final xalları 4 (dörd) yarış nəticələrindən götürüləcəkdir (ROBİ xalları,yalnız iki hərəkətin cəmi):

   a. C. 2. c) ~~C~~ ii) bölməsinə müvafiq olaraq, hər bir dövrdən ən yaxşı 1 (bir) nəticə, yəni 3 (üç) nəticə; (dövr-1, dövr-2 və dövr-3) və;

   b. ümumi təsnifat dövrü üçün növbəti ən yaxşı 1 (bir) nəticə.

4. Milli Olimpiya Komitəsi IWF-nin təsnifat sistemi ilə bağlı nəzərdə tutulan saydan maksimum daha çox idmançını təsnifatlandırıbsa və ya lisenziya kvotası Milli federasiyadan/MOK geri alınıbsa, o halda MOK medallar uğrunda mübarizə

aparacaq məqbul idmançıları seçməlidir. Müvafiq idmançıya veriləcək lisensiya digər idmançıya verilə bilməz.

5. Bir idmançı lisenziya qazandıqdan sonra ,onun lisenziyası etibarsız sayılarsa və ya MOK tərəfindən təsdiqlənməzsə, o halda belə bir lisenziya qeyd olunan bölümə əsasən yenidən bölüşdürülməlidir. **I.İstifadə olunmamaış lisenziyaların yenidən bölüşdürülməsi.**

6. Əgər milli federasiya/MOK 2020 Tokio Olimpiya Oyunlarında iştirakdan uzaqlaşdırılırsa, o halda heyətə daxil olan idmançı (idmançılar) qeyd olunan yarışda iştirak edə bilməz. Milli federasiyadan/MOK alınan lisenziya aşağıdakı bölmədə ətraflı surətdə qeyd olunduğu qaydada yenidən bölüşdürülməlidir. **I.İstifadə olunmamaış lisenziyaların yenidən bölüşdürülməsi.**

7. Əgər idmançı təsnifat dövrü ərzində 1 (bir) dəfədən artıq olimpiya çəki dərəcəsində və ya kombinə olunmuş olimpiya və qeyri olimpiya çəki dərəcələrində iştirak edibsə, o halda E.2 və E. 3 paraqrafında qeyd olunmuş formula idmançının mütləq reytinqinin müəyyən olunmasında istifadə olunur.

   a) 1 (bir) dəfədən artıq olimpiya çəki dərəcəsində iştirak edən idmançı, təsnifat dövrü ərzində minimum 2 (iki) dəfə eyni olimpiya çəki dərəcəsində iştirak etmək şərtilə, Milli Olimpiya Komitəsi (MOK) Milli Federasiya (MF) ilə razılaşdırdıqdan sonra, belə bir idmançının qəbul oluna bilən çəki dərəcəsini 12 may 2021-ci il tarixinədək seçir. Əgər 12 may 2021-ci il tarixinədək MOK belə bir idmançının müvafiq çəki dərəcəsini seçməzsə,o halda E.7.(b) bölməsi tətbiq olunacaqdır.

   ~~a)~~ (b) Əgər E.7.(a) bölməsinə müvafiq olaraq, MOK bir olimpiya çəki dərəcəsindən artıq olan çəki dərəcəsinin seçimini etmirsə, o halda təsnifat dövrü ərzində bir olimpiya çəki dərəcəsində 2 (iki) yarışda iştirak etmək şərtilə, hər hansı yarışda cəmdə (kq) yüksək reytinqə malik olmuş idmançıya lizenziya ayrılmalıdır.

   ~~b)~~ (c) Kombinə olunmuş olimpiya və qeyri-olimpiya çəki dərəcələrində iştirak edən idmançı üçün, MOK çəki dərəcəsini E.7.(a) bölməsinə müvafiq olaraq seçimini etmirsə,o halda təsnifat dövrü ərzində bir olimpiya çəki dərəcəsində 2 (iki) yarışda iştirak etmək şərtilə,hər hansı yarışda cəmdə (kq) yüksək reytinqə malik olmuş idmançıya lizenziya ayrılmalıdır.

## F. TƏŞKİLATÇI-DÖVLƏT ÜÇÜN LİSENZİYA

Təşkilatçı-dövlət lisenziyaları yalnız IWF-in mütləq reytinq yolu ilə qazana bilər (~~yalnız~~ dünya və qitə xalları).
Əgər təşkilatçı-dövlət lisenziyaları IWF-in mütləq reytinq yolu (dünya və qitə xalları) ilə maksimum qazana bilməyibsə, o halda təşkilatçı-dövlət üçün 6 (altı) lisenziyanın (3 (üç) kişi və 3 (üç) qadın idmançıları üçün ayrılmasına zəmanət verilir.

Əgər təşkilatçı-dövlət lisenziyaları IWF-in mütləq reytinq yolu (dünya və qitə xalları) ilə qazanıbsa, o halda təşkilatçı-dövlət tərəfindən istifadə olunmamış lisenziyalar aşağıdakı bölmədə qeyd olunan qaydada yenidən bölüşdürüləcəkdir: **İ.İstifadə olunmamış lesenziyaların yenidən bölüşdürülməsi.**

## G. ÜÇ TƏRƏFLİ KOMİSSİYANIN DƏVƏT LİSENZİYALARI

2020 Tokio Olimpiya Oyunları ilə bağlı müvafiq MOK-lar üçün üç tərəfli komissiya tərəfindən 8 (səkkiz) lisenziyanın verilməsi mümkündür. 4 (dörd) kişilər və 4 (dörd) qadınlar üçün.
14 oktyabr 2019-cu ildə Beynəlxalq Olimpiya Komitəsi bütün uyğun MOK-ları üç tərəfli komissiyaya dəvətnamə lisenziyaları ilə bağlı sifarişləri təqdim etməyə dəvət edəcəkdir. MOK-lar üçün sifarişlərin son göndərilmə tarixi - yanvar 2020-ci il. Dəvət lisenziyalarının MOK-lar arasında bölüşdürülməsi prosesi müvafiq idman növündə təsnifat dövrünün bitməsindən sonra həyata keçiriləcəkdir. Üç tərəfli komissiya MOK-lar arasında bölüşdürülmüş dəvət lisenziyalarını məktub vasitəsilə təsdiq edəcəkdir.

Dəvət lisenziyaları haqqında ətraflı məlumat *“2020 Tokio Olimpiya Oyunları- Olimpiya Oyunlarının Üç tərəfli komissiyasının dəvət lisenziyaları-bölüşdürülmənin proseduru və qaydaları”nda* öz əksini tapıb.

## H. LİZENZİYALARIN TƏSDİQ OLUNMASI PROSESİ

Hər bir müvafiq yarışdan sonra, IWF mütləq reytinqin nəticələrini/xalları öz saytında dərc edir. (https://www.iwf.net/qualif/menu/).Təsnifat dövrü başa çatdıqdan sonra, IWF MOK-lar üçün ayrılmış lisenziyalar haqqında məlumat verəcəkdir. Sonra isə ayrılmış lisenziyaların istifadə olunması istəyini təsdiq etmək üçün MOK-lara 15 (on beş) gün vaxt veriləcəkdir. **J.Təsnifat cədvəlində qeyd olunduğu kimi.**

Əgər təşkilatçı-dövlət lisenziyaları IWF-in mütləq reytinq yolu (dünya və qitə xalları) ilə maksimum qazana bilməyibsə, ona verilən zəmanətli lisenziyalar üçtərəfli komissiyanın bölüşdürülmə prosesindən öncə təsdiqlənməlidir.

## I. İSTİFADƏ OLUNMAMIŞ LİSENZİYALARIN YENİDƏN BÖLÜŞDÜRÜLMƏSİ

### 1. IWF-nin mütləq reytinqi; dünya xalları

Əgər ayrılmış lisenziya son tarixə kimi MOK tərəfindən təsdiq olunmayıbsa, rədd edilibsə, milli federasiyadan/MOK geri alınıbsa və ya iştirakdan uzaqlaşdırılıbsa, o halda hazırkı təsnifat sisteminə əsasən lisenziya ən yüksək reytinqə (IWF-nin mütləq reytinqi - dünya xalları) malik olan idmançıya veriləcəkdir. MOK-a veriləcək maksimum lisenziya şərtilə.

### 2. IWF-nin mütləq reytinqi; qitə xalları

Əgər ayrılmış lisenziya son tarixə kimi MOK tərəfindən təsdiq olunmayıbsa, rədd edilibsə, milli federasiyadan/MOK geri alınıbsa və ya iştirakdan uzaqlaşdırılıbsa, o halda hazırkı təsnifat sisteminə əsasən lisenziya ən yüksək reytinqə (IWF-nin mütləq reytinqi - dünya xalları) malik olan eyni qitənin idmançısına veriləcəkdir. MOK-a veriləcək maksimum lisenziya şərtilə.

### 3. Təşkilatçı-dövlət tərəfindən istifadə olunmamış lisenziyaların yenidən bölüşdürülməsi

Əgər təşkilatçı-dövlət lisenziyanı IWF-nin mütləq reytinqi (dünya və qitə xalları) vasitəsilə qazanıbsa və ya hər-hansı bir lisenziyanı geri qaytarıbsa və ya təşkilatçı-dövlət iştirakdan uzaqlaşdırılıbsa, o halda istifadə olunmayan lisenziyaların IWF tərəfindən yenidən verilməsində aşağıdakı şərtlər əsas götürüləcəkdir:

-IWF-nin mütləq reytinqinə müvafiq, daha yüksək vəziyyəti olan və hələ ki, lisenziya təqdim olunmayan MOK-a üstünlük veriləcəkdir.

### 4. Üç tərəfli komissiya tərəfindən istifadə olunmamış dəvət lisenziyalarının yenidən bölüşdürülməsi

Üç tərəfli komissiya dəvət lisenziyalarını istifadə etmədikdə, o halda istifadə olunmamış lisenziyaların yenidən bölüşdürülməsi məsələsi universallıq əsasında,

-IWF-nin mütləq reytinqinə müvafiq, daha yüksək vəziyyəti olan və hələ ki, lisenziya təqdim olunmayan MOK-a üstünlük veriləcəkdir.

## J. TƏSNİFAT CƏDVƏLİ

| TARİX | DÖVRLƏR |
|---|---|
| **01.11.2018 - 30.04.2020**<br>**01.10.2020 - 30.04.2021** | Təsnifat dövrü - IWF-nin reytinqində qəbul olunan bütün yarışlar: https://www.iwf.net/competitions/calendar/ |
| **14.10.2019** | MOK tərəfindən dəvət lisenziyaları haqda rəsmi sorğunun üçtərəfli komissiyaya göndərilməsinin son tarixi |
| **12.05.2021** | Maksimal saydan artıq idmançının təsnifatlanması haqqında IWF MOK-u xəbərdar edir |
| **19.05.2021** | MOK idmançıların maksimal sayına müvafiq olaraq, idmançıları və onların çəki dərəcələrini təsdiq edir |
| **22.05.2021** | IWF mütləq reytinqi dərc edir və MOK-lara ayrılmış lisensiyalar haqda məlumatlandırır |
| **22.05.2021 - 05.07.2021** | İstifadə olunmamış lisenziyaların yenidən bölüşdürməsi dövrü |
| **23.05.2021** | Son təsnifat statusunu nəzərə alaraq; Təşkilatçı-dövlət qəbul edəcəyi dövlət tərəfindən istifadə olunacaq lisenziyaları təsdiq etməli |
| **25.05.2021** | Üçtərəfli komissiya tərəfindən dəvət lisenziyasını n verilməsi üçün IWF mövcud çəki dərəcələri haqda MOK-u məlumatlandırır |
| **Müəyyən ediləcəkdir** | Üçtərəfli komissiya çəki dərəcələri daxil olunmaqla MOK-a ayrılmış dəvət lisenziyasını yazılı surətdə təsdiq etməlidir |
| **29.05.2021** | Təsnifat sistemində qeyd olunan müvafiq saydan artıq idmançı təsnifatlanıbsa, o halda MOK idmançını seçməli və ayrılmış lisenziyaları IWF-də təsdiq etməli |
| **05.07.2021** | Tokio-2020 Olimpiya Oyunlarına sifarişlərin verilməsinin son tarixi |
| **23.07.2021 - 08.08.2021** | Olimpiya Oyunları - Tokio 2020 |